# Romantizm cərəyanının romantik ruhlu şairi

## *Abbas Səhhət - 150*



*Könlümün sevgili məhbubu mənim,*
*Vətənimdir, vətənimdir, vətənim.*

*(Daycest)*

**Bakı - 2024**

Abbas Səhhət Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tanınmış şair, həkim, görkəmli müəllim və maarif xadimidir. Romantizm cərəyanının nümayəndəsi olan Abbas Səhhətin əsərlərinin əsas mövzusu vətən, millət, milli azadlıq uğrunda mübarizədir.

Mehdizadə Abbas Əliabbas oğlu 1874-cü ildə Şamaxıda ruhani ailəsində dünyaya gəlmişdir. O, ilk təhsilini Şamaxıda alır, daha sonra isə Məşhəd və Tehranda tibb təhsili alır. 1900-cü ildə Tehran Universitetini bitirən və rus, ərəb, fars və fransız dillərini mükəmməl bilən gənc Abbas 1901-ci ildə Şamaxıya qayıdır və rus idarəçiləri tərəfindən İrandakı diplomu qəbul edilmədiyinə görə öz sənətindən əl çəkir və məktəblərdə Azərbaycan dilindən dərs keçməyə başlayır. 1903-cü ildən məqalələri "Şərqi-Rus" qəzetində çap olunur. Professor Əli bəy Hüseynzadənin banisi olduğu Azərbaycan romantik ədəbiyyatı cərəyanına qoşulur. İlk şeirini 1904-cü ildə "Şərqi-Rus" qəzetində dərc etdirmiş A.Səhhət sonralar da Azərbaycan dövrü mətbuatında şeir, məqalə və hekayələrlə çıxış edir. Onun şeiriyyətinin əsas mövzusu vətən idi. Təxminən yüz il öncə yazılan "Vətənimdir" şeiri bugün də dillər əzbəridir.

1905-ci ildə "Yeni poeziya necə olmalıdır?" adlı məqaləsi, daha sonra "Poetik nitq", "Azadlığa mədhiyyə", "Oyanışın səsi" şeirləri işıq üzü görür. "Yeni üslublu məktəblər" ideyasının qızğın tərəfdarı və təbliğatçısı olan Abbas Səhhət eyni zamanda tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, Lermontov, Puşkin, Krılov, Maksim Qorki, Viktor Hüqo və digər şair və yazıçıların əsərlərindən tərcümələr etmişdir. 1912-ci ildə şairin şeirlərindən ibarət "Sınıq saz" və Avropa şairlərindən tərcümə etdiyi "Qərb günəşi" adlı şeirlər toplusu işıq üzü görür. Bir qədər sonra "Əhmədin şücaəti" adlı poeması, 1916-cı ildə isə "Şair, muza və şəhərli" adında romantik poeması nəşr olunur.

Abbas Səhhətin yaradıcılığına Nizami, Hafiz, Sədi kimi şairlərin böyük təsiri olmuşdur. O, türk xalqlarının ədəbiyyatları ilə də yaxından maraqlanmış, xüsusilə Tofiq Fikrət yaradıcılığına xüsusi diqqət göstərmişdir. Şair həm də Mirzə Ələkbər Sabir ilə yaxın dost olmuşdur. Hər ikisinin Şamaxıda yaşamağı bu dostluğun güclənməsində böyük rol oynamışdır. Onlar bəzən ikisi birlikdə Bakıya gəlmişdir. Mirzə Ələkbər Sabir söhbətlərindən birində Abbas Səhhəti özünün ustadı, özünü isə onun şagirdi kimi göstərmişdir. Abbas Səhhət 1912-ci ildə M.Ə.Sabirin əsərlərini toplayıb ilk dəfə "Hophopnamə" adı ilə nəşr etdirmişdir.

A.Səhhətin Azərbaycan maarifi və uşaq ədəbiyyatının inkişafındakı xidmətləri də böyükdür. Cavan yaşlarından müəllimlik edən, dərsliklər yaradan şair uşaq və gənclər üçün müxtəlif janrlarda əsərlər yazmış, milli uşaq ədəbiyyatının ən gözəl nümunələrini yaratmışdır. O, M.Mahmudbəyovla birgə "Yeni məktəb" (1909), "Üçüncü il" (1909), "Türk

ədəbiyyatına ilk qədəm" (1914) dərsliklərini yazmış, uşaqlar üçün “Ana və bala”, “Ata və oğul”, “Yay”, “Ayı və şir”, “Quşlar” və onlarla başqa şeirlər yazıb.

1918 ilin martında erməni-daşnak quldur dəstələrinin Şamaxıda törətdiyi soyqırımından sonra şairin evi və əlyazmaları yandırılır və bundan sonra o, Gəncəyə köçməyə məcbur olur. Yaşadığı dərin sarsıntıdan sonra o ağır xəstəliyə düçar olur və ömrünün 44-cü ilində, 1918-ci il iyulun 11-də Gəncə şəhərində vəfat edir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Abbas Səhhətin anadan olmasının 150 illik yubileyi münasibətilə şair haqqında kitabxana fondunda mövcud olan kitab və dövrü mətbuat materiallarının tammətnli biblioqrafik siyahısını, həmçinin şairin müdrik kəlamlarını və şair haqqında tanınmış şəxsiyyətlərin söylədikləri fikirləri toplayaraq oxucuların istifadəsinə təqdim edir.

## Abbas Səhhətin müdrik deyimləri

- Dünya gör-götür dünyasıdır. Biz gördüklərimizi götürsək, nə eybi var?
- Mən müəllimlik etməklə öz xalqımın ən ağır xəstəliyini, onun savadsızlığını müalicə edirəm.
- Bu dünyanı biz lisanımız vasitəsilə öyrəndik, dilimiz vasitəsilə tərbiyə tapdıq. Onu sevməmək olarmı?
- Sən mükafatını insanlığa xidmətdə ara, ədəbi zövqü, təsəllini həqiqətdə ara.
- Ey xalqın bərgüzidə alimləri, ey millətin möhtərəm müəllimləri! Ümidi-istiqbal sizədir. Millətin göz dikəcəyi sizlərsiniz. Qoşunuz millətin imdadına, qoşunuz… millətin səviyyəyi-fikriyyəsini yüksəltməyə, balaları pərvaz etməyə çalışınız… Təlimləriniz ilə cahanın çöhrəsini sizlər dəyişdirə bilərsiniz, ey müəllim əfəndilər.
- Şair dövrünün ayinəsidir. O, əldə alət ola bilməz.
- Ürəfamızdan milli adətlərimizi həmişə nəzərdə tutmaqların təmənna edirəm, bunlarsız millət yaşamaz.
- Lazımınca ana dilini bilməyən bir cocuq hökümət dilini öyrənə bilməz. Nə fayda ki, el müəllimləri adlanan zatların əksəri ana dilinə əsla rəğbət və məhəbbət

etməyirlər, istər evlərində, istər məktəblərində ana dilinə dair bir vərəq-para olsun, bulundurmayırlar. Hətta bəziləri var ki, bu dəyərli ada, bu ehtiramlı mövqeyə əsla istehdadları yoxdur.

- Mükəmməl bir dil zəmanəmizdəki dəhşətli silahlardan ən qiymətlisidir. Hər klassikin üslubu onun şəxsiyyətidir.

## Görkəmli şəxsiyyətlər Abbas Səhhət haqqında

Səhhət əfəndinin tərcümədə daha artıq məharət və istedadı olduğu üçün rus ədiblərindən “İkinci Jukovski” deyə bilərik. Belə ki, cavan şairimizin “Məğrib günəşləri” əsərində rus məşhur şüərasından – Puşkin, Lermontov, Nikitin, Krılov və bir çox başqa şüəralardan etdiyi tərcümələr əsli ilə müvafiq olmaqla bərabər, çox da şayani-təqdirdir.

**Abdulla Şaiq,**

*şair-dramaturq*

Bu müdhiş, bu qorxunc vəlvəleyi-hadisat içində şair-təbib Abbas Səhhət də sükunətgahi-əbədiyyətə çəkilib getdi. Həm maddi, həm də mənəvi xadimi-millət olan Səhhət qardaşımızın üfuli-əbədisindən hənuz Qafqasiya türklərinin xəbəri yoxdur.

**Məhəmməd Hadi,**

*şair*

Abbas Səhhət dövrünün çox az yazarlarından olub ki, hər iki – həm romantik, həm də realist ədəbi məktəbin nümayəndəsi kimi Azərbaycan ədəbiyyatında, mətbuatında, ədəbi mühitində tanınıb, oxunub, sevilib və yaddaşlarda həkk olunub… Abbas Səhhət romantiklər arasında məktəb, tərbiyə ilə ən çox bağlı olan şairdir.

**Mir Cəlal,**

*yazıçı, ədəbiyyatşünas*

Abbas Səhhət yaradıcılığının ideya-istiqamətindən bəhs edərkən, onu “istismarçı siniflərə qarşı fəhlə və kəndliləri müdafiə edən” bir şair kimi dəyərləndirirəm.

**Cəfər Xəndan,**

*şair, tənqidçi ədəbiyyatşünas*

Abbas Səhhətin yaradıcılığı, əsərlərinin ideya-siyasi istiqaməti, romantikasının xüsusiyyətləri onun yaradıcılığının “ruh etibarilə Lermontova yaxın” olduğunu göstərir.

**Məmməd Arif,**

*tənqidçi, ədəbiyyatşünas*

Səhhətin məktəbyaşlı uşaqlar üçün yazdığı əsərlərdə ictimai məzmun daha qüvvətlidir. Vətən məhəbbəti, maarifə, elmə çağırış bu əsərlərin əsas məzmununu təşkil edir. Şair hər nədən yazır yazsın, qarşısına nə kimi tərbiyəvi bir məqsəd qoyur-qoysun, onu vətən məhəbbəti ilə, elm və maariflə əlaqələndirir.

**Kamal Talıbzadə,**

*akademik*

Səhhət sözü ilə işi bir olan xadim idi. Xalqa məktəb lazım idi – onlar da açdılar. Xalqa yeni teatr lazım idi – yaratdılar, hətta qadın rolunu da bir müddət özləri oynadılar. Xalqa tibbi yardım idi – göstərdilər. Kitab lazım idi – yazdılar. Qəzet-jurnal lazım idi – çıxartdılar…

**Əziz Mirəhmədov,**

*tənqidçi, ədəbiyyatşünas*

Hər şeydən çox Abbas Səhhətin tərcümələri məndə böyük təsir yaratdığından rus ədəbiyyatına qarşı qüvvətli bir həvəs duydum. Mən rus şairlərini oxumağa başladım. Tərcüməçilik həvəsinin məndə oyanması belə oldu.

**Məmməd Rahim,**

*Xalq şairi*

Səhhət təbib olduğu üçün təxəllüsünü “Səhhət” qoymuşdur. Səhhətin dostları şüəradan Ağəlibəy Naseh, Məşədi Məhəmməd Tərrah, Məşədi Ələkbər Sabir çox vaxt şeirini Səhhətgildə yazardı.

**Salman Mümtaz,**

*ədəbiyyatşünas-alim*

## Əsərləri

### Kitablar

***Kiril əlifbası ilə***

Əsərləri. – Bakı: Azərnəşr, 1950. – 398 s.

Əsərləri: 2 cilddə. C. 1. Şeirlər, mənzum məktublar, uşaq şeirləri, hekayələr, pyeslər. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1975. – 314 s.

Əsərləri: 2 cilddə. C. 2. Məqalələr, tərcümələr. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1976. – 314 s.

Bağça. - Bakı : Azərnəşr, 1963. - 6 s.

Bir yetimin xoşbəxtliyi. – Bakı: Gənclik, 1967. – 11 s.

Cücələr. - Bakı : Azərnəşr, 1966. - 8 s.

Cücələrim. - Bakı : Gənclik, 1977. - 11 s.

Köç: şeirlər və təmsillər. - Bakı : Gənclik, 1975. - 53 s.

Müntəxəbat: On doqquzuncu əsr Azərbaycan ədəbiyyatından. – Bakı: Azərnəşr, 1928. – 164 s.

Quşlar. - Bakı : Gənclik, 1987. - 14, [1] s.

Seçilmiş şeirlər. - Bakı : Azərnəşr, 1938. – 108 s.

Seçilmiş şeirlər. - Bakı : Uşaqgəncnəşr, 1948. – 67 s.

Seçilmiş şeirlər. - Bakı : Uşaqgəncnəşr, 1958. – 96 s.

Şeirlər. - Bakı : Gənclik, 1968. - 19 s.

Vətən. - Bakı : Gənclik, 1988. - 12 s.

***Latın qrafikası ilə***

Ayı və şir : poeziya. - Bakı : Altun kitab, 2008. - 11 s.

Gün dağlara yayıldı : poeziya. - Bakı : Turan Nəşrlər Evi, 2002. - 6 s.

Seçilmiş əsərləri. – Bakı: Lider Nəşriyyat, 2005. – 456 s.

Təmsillər, tərcümələr. - Bakı : CBS Polygraphic production, 2001. - 15 s.

Uşaq şeirləri . - Bakı : CBS Polygraphic production, 2001. - 11 s.

Yay səhəri : şeirlər, təmsillər, hekayələr, pyeslər. - Bakı : "TEAS PRESS" Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2018. - 164 s.

**Dövrü mətbuatda**

Hali vətən // Ədəbiyyat qəzeti. - 2019. - 12 yanvar. - № 1. - S. 2-3.

Yol verin ; Bənzətmə ; Orucluğun proqramması və b. // Azərbaycan. – 1974. - № 12. – S. 69-73.

**Haqqında kitablarda**

**Ağayev M**. Abbas Səhhət : Fəlsəfi və sosial - siyasi görüşləri - Bakı : Elm və Təhsil, 2010. - 88 s.

**Əlioğlu M.** Bizim Səhhət // Darıxan adamlar. C. 1. - Bakı : Təhsil, 2009. – S. 141-154.

**Əsgərli F**. Abbas Səhhət ; Aşpaz və pişik ; Oğru və anası və b. // Azərbaycan uşaq ədəbiyyatı : dərs vəsaiti - Bakı : ADPU, 2012. – S.164-182.

**Nəbiyev B**. Abbas Səhhət Mehdizadə Şirvani // Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri : Elmi-kütləvi oçerklər. - Bakı : Ozan, 2012. – S.172-226.

**Soltanov M**. Abbas Səhhət // Şair və yazıçılarımızın həyatından maraqlı anlar - Bakı : "AM 965" MMC, 2010. – S. 120-124.

**Haqqında dövrü mətbuatda**


Abbas Səhhət // Savalan. – 2021. – 13-26 iyul. - № 24. – S. 2.

**Azəri L.** Abbas Səhhət. Biblioqrafiya kitabının təqdimatı keçirildi // Mədəniyyət. – 2017. – 5 iyul. –№ 51. - S. 5.

**Əhmədalılar T**. Xalqın təbli həbibi və təbibi // Mədəniyyət. – 2015. – 10 iyul. – № 52. - S. 15.

**Əhmədli S**. A.Səhhətin "Vətən" şeirinin təhlili // Azərbaycan müəllimi. – 2001. – 15-21 noyabr.

**Əsgərli Z**. Vətən və hürriyyət nəğməkarı : Abbas Səhhət - 140 // Azərbaycan. - 2014. - 24 oktyabr. - № 231. - S. 10.

**Əyyubov V**. Abbas Səhhət // Kitablar aləmində. – 1987. - № 1. – S. 29-30.

**Əzizov Ə.** Uşaqların sevimlisi // Ədəbiyyat və incəsənət. – 1975. – 22 fevral. – S. 5.

**Fərəcov S**. Vətənə sevgi və sədaqət dərsləri // Mədəniyyət : qəzet. - 2022. - 6 iyul. - № 50. - S. 6.

**Heydərov Y.** A.Səhhət yaradıcılığında vətənpərvərlik ideyası // Azərbaycan müəllimi. – 1997. – 3 aprel. – S. 4.

**İsayev İ.**, Rüstəmov F. Abbas Səhhət bu gün də ana dilimzin keşiyində // Ulduz. – 1990. - № 12. – S.74-77.

**Qurbanqızı Z**. Azərbaycan ədəbiyyatında romantizmin tanınmış nümayəndəsi : Abbas Səhhət 1874-cü ilin iyulun 11-də Şamaxıda dünyaya gəlib // Respublika. - 2023. - 11 iyul. - № 142. - S. 7.

Məsləkim tərcümeyi-halımdır! : Böyük ədibimiz Abbas Səhhətin anadan olmasının daha bir ildönümü tamamlandı // 525-ci qəzet. - 2022. - 25 may. - № 90. - S. 12.

**Namazov Q**. Cəfər Xəndan klassiklərimiz haqqında : Cəfər Xəndan - 100 // Ədəbiyyat qəzeti. - 2010. - 14 may. - № 19. - S. 5.

**Rüstəmli A**. Abbas Səhhətin naməlum şeirləri // Ədəbiyyat qəzeti. – 2015. – 5 sentyabr. – S. 23.

**Tağıyev R.** Ölərəm, əldən əgər getsə vətən // Azərbaycan. – 1974. - № 12. – S. 74-75.

**Tağıyev R**. Romantik arzulu həyat şairi // Sovet kəndi. – 1974. – 26 dekabr. - № 156. – S. 3.

**Talıbov Y.** Abbas Səhhət fiziki tərbiyə haqqında // Məktəbdə bədən tərbiyəsi. – 1990. - № 5. – S. 40-43.

**Turan A**. 115 yaşlı "Hali Vətən" : Əlibəy Hüseynzadə - 155 // Ədəbiyyat qəzeti. - 2019. - 12 yanvar. - № 1. - S. 2-3.

**Tərtib etdi:** **Əkbərova Aysel**